

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 129 (21.790)

*12 iyul 2017-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Özbəkistan Respublikası Nazirlər Kabineti yanında Dini Məsələlər üzrə Dövlət Komitəsinin sədri Artukbek Yusupovu və Özbəkistan Müsəlmanları İdarəsinin sədri, müfti Usmonxon Alimovu qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə Özbəkistan arasında ikitərəfli münasibətlərin yaxşı perspektivlərə malik olduğunu deyib. Ölkə başçısı dini qurumlar sahəsində də təcrübə mübadiləsi və əməkdaşlıq ilə əlaqədar müzakirə olunan məsələlərin əhəmiyyətini qeyd edib. Prezident İlham Əliyev Azərbaycanda "İslam Həmrəyliyi İli" çərçivəsində bu il Özbəkistanda keçiriləcək İslam həmrəyliyinə həsr edilmiş konfransın böyük əhəmiyyətə malik olduğunu deyib. Dövlətimizin başçısı onu da qeyd edib ki, Azərbaycanda digər mötəbər beynəlxalq tədbirlərlə yanaşı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində də bir çox konfranslar keçirilir.

Özbəkistan və Azərbaycan xalqlarının bir-biri ilə tarixi dostluq telləri ilə bağlı olduğunu deyən Özbəkistan Respublikası Nazirlər Kabineti yanında Dini Məsələlər üzrə Dövlət Komitəsinin sədri Artukbek Yusupov bildirib ki, Azərbaycandakı inkişaf prosesləri və dost Azərbaycan xalqının uğurları ölkəsində maraqla izlənilir.

## Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsinin 48-ci ildönümü münasibətilə tədbir keçirilib

***Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatında keçirilən tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev "14 iyul 1969-cu il: Azərbaycanın yeni tarixinin başlanğıcı" mövzusunda məruzə ilə çıxış edib. Müzakirələrdə təşkilatın sədr müavini İbrahim Hənifəzadə, idarə heyətinin üzvü Ünbülbanu Musayeva, partiya veteranı Musa Şirəliyev, Cəlilkənd tam orta məktəbinin direktoru Eldəniz Musayev, Zeyvə kənd tam orta məktəbi ilk partiya təşkilatının sədri Məhərrəm Rəhimov və başqalarının çıxışları dinlənilib.***



Qeyd olunub ki, ötən əsrin altmışıncı illərinin sonunda Azərbaycanda ciddi dəyişikliyə zəruri ehtiyac yaranmışdı. Bu dəyişiklik məhz 1969-cu il iyulun 14-dən başlandı. Həmin tarixdə dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsindən qısa vaxt sonra respublikada tənəzzülün qarşısı alındı, ictimai-siyasi, sosial-mədəni həyatın bütün sahələrində inkişaf dövrü başlandı. 1969-1982-ci illərdə Azərbaycan, sözün həqiqi mənasında, nəhəng tikinti meydanını xatırladırdı. Bu illər ərzində şəhər və rayonlarda böyük sənaye-istehsal kompleksləri, fabrik və zavodlar, səhiyyə və mədəniyyət müəssisələri, məktəblər, inzibati binalar, saysız-hesabsız yaşayış evləri, yollar, parklar, mehmanxanalar, iri şərab və konserv zavodları, çay, tütün fabrikləri tikildi. Kənd təsərrüfatı inkişaf etdirildi, heyvandarlıq məhsulları istehsalının artırılması istiqamətində tədbirlər həyata keçirildi, nəhəng meliorativ qurğular tikildi.

Vurğulanıb ki, respublikada aparılan ciddi islahatlar, həyata keçirilən təşkilati tədbirlər nəticəsində iri metallurgiya, maşınqayırma, energetika, elektronika, kimya və neft-kimya sənayesi sahələri yaradıldı. Nəticədə, 1972-ci ildə Azərbaycan inkişaf sürətinə görə SSRİ-də ən qabaqcıl respublikaya çevrildi. Ulu öndər qarşısına həm də Azərbaycan xalqının mənəviyyatının, milli və mənəvi dəyərlərinin yaşadılması və təbliği, respublikanın mənəvi-psixoloji mühitinin ciddi şəkildə dəyişdirilməsi vəzifəsini qoymuşdu. Bütün bunlar uğurla həyata keçirildi. Xalqımızın böyük oğlunun həmin dövrdəki fəaliyyəti yalnız milli intibaha – müstəqil Azərbaycan Respublikasına aparan yolun ən vacib mərhələsini təşkil etdi.

Beləliklə, 48 il bundan əvvəl ulu öndər Azərbaycanda iqtisadiyyatın, sosial həyatın, hərbi quruculuğun, elmin, mədəniyyətin inkişaf etdirilməsi, əhalinin həyat şəraitinin yaxşılaşdırılması, mövcud olan neqativ halların aradan qaldırılması istiqamətində fədakarlıqla çalışdı. Bu mübarizədə O, yalnız xalqına arxalandı, xalq da dahi rəhbərinə arxa, dayaq oldu. Heydər Əliyev – Azərbaycan, Azərbaycan – Heydər Əliyev vəhdəti də məhz o illərdən yaranmışdır. Xalqla, Azərbaycanla birlikdə ümummilli lider də ucaldı.

Diqqətə çatdırılıb ki, görkəmli dövlət xadiminin 1993-cü ildə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlişi ilə birlikdə müstəqilliyimizin dönməzliyi və əbədiliyi təmin edildi. Bu uzaqgörən siyasətin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində respublikamızın beynəlxalq aləmdəki mövqeləri gündən-günə daha da möhkəmləndi. Azərbaycan dünya xəritəsində öz layiqli yerini tutdu.

**Elman MƏMMƏDOV**

## Naxçıvanda əhalinin işlə təminatı diqqət mərkəzindədir

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2017-ci ilin birinci yarısında aktiv məşğulluq tədbirləri davam etdirilmişdir.***

Bu dövrdə 1299 nəfər məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən 6 şəxs kvota yerlərinə göndərilmiş, 136 nəfər haqqıödənilən ictimai işə cəlb olunmuşdur. İşlə təmin edilənlərdən 56-sı məhdud fiziki imkanlı şəxs, 1-i cəzaçəkmə müəssisəsindən azad edilən, 4-ü isə hərbi xidmətdən yeni tərxis olunanlardır. Qeyd olunan dövrdə 44 nəfər kəndlərdəki xidmət mərkəzlərində, keçirilən əmək yarmarkalarında isə 206 işaxtaran peşə və ixtisasına uyğun işlə təmin olunmuşdur.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində əmək bazarının tələbləri nəzərə alınaraq müxtəlif peşə sahələri üzrə kurslar təşkil olunmuş, kurslara 207 nəfər cəlb edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən iyunun 14-də Şərur, Babək, Ordubad və Culfa rayonlarından olan və uzun müddət ünvanlı dövlət sosial yardımı alan 15 aztəminatlı ailəyə fərdi təsərrüfatlarını qurmaq üçün cins inəklər verilmişdir.

Muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqların təhsili, sosial reabilitasiyası və asudə vaxtlarının səmərəli təşkili ilə bağlı bir sıra tədbirlər həyata keçirilmiş, Naxçıvan Regional İnformasiya Mərkəzində defektoloji, multisensorlu, təlim-bərpa, psixoloji dəstək və əmək terapiyası xidmətlərinə 148 uşaq cəlb edilmişdir. Hərəkət qabiliyyəti məhdud 2 uşaq üçün isə distant tədris təşkil olunmuşdur. Tətil günlərində sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə 60 uşaq Ağbulaq İstirahət Mərkəzinə göndərilmişdir.

Naxçıvan Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 133 nəfərin, Naxçıvan Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 142 uşağın müalicəsi təşkil edilmişdir. Həmçinin sağlamlıq imkanları məhdud 40 şəxsə sanatoriya və müalicə pansionatlarına göndəriş verilmiş, 50 nəfər texniki reabilitasiya vasitələri ilə təmin olunmuş, məhdud fiziki imkanlı 182 nəfərə səyyar protez-ortopedik xidmət, 22 nəfərin sosial məişət şəraitinin yaxşılaşdırılmasına, 19 nəfərin respublika daxilində müalicəsinə maddi köməklik göstərilmişdir.

Paralimpiya Federasiyasının təşkilatçılığı ilə Naxçıvan şəhərində şahmat, üzgüçülük, qolbol, boccia, tennis və bədii gimnastika bölməsi, Şərur rayonunda 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqlardan ibarət bədii gimnastika, üzgüçülük, masaüstü tennis, atıcılıq və şahmat bölməsi, Ordubad rayonunda şahmat və basketbol bölmələri, Culfa rayonunda şahmat və futbol bölməsi, Şahbuz rayonunda şahmat bölməsi, Kəngərli rayonunda şahmat, voleybol və futbol bölmələri fəaliyyətə başlamışdır. Müvafiq dövrdə sağlamlıq imkanları məhdud şəxslər arasında boccia və pauerliftinq, futzal, armresling üzrə yarış təşkil edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***Babək rayonunun ən böyük yaşayış məntəqəsi olan Nehrəm kəndi muxtar respublikanın abad yaşayış məntəqələrindən biridir. Bu gün müasir Azərbaycan kəndinə nümunə olan Nehrəmdə bu ilin mart ayından başlayaraq bayraq meydanı və yeni park salınır, tarixin yadigarı olan "İmamzadə" türbəsi təmir olunur.***

## Nehrəm kəndində aparılan quruculuq işləri davam etdirilir





Buradakı bayraq dirəyinin hündürlüyü 9 metr olacaq. Bundan başqa, ərazidə istirahət parkı yaradılacaq. Meydanın ətrafında müasir işıqlandırma sistemi qurulacaq, yaşıllıqlar salınacaq. Qeyd edək ki, muxtar respublikanın rayon mərkəzlərində bayraq meydanı salınıb. İlk dəfədir ki, bir kənddə belə bir tədbir həyata keçirilir. Bu, dövlətçiliyimizə, milli atributlarımıza verilən yüksək qiymətin daha bir ifadəsidir.

Doğma diyarımızda dini-mədəni abidələrin və ziyarətgahların bərpa olunması istiqamətində görülən işlər geniş vüsət alıb. Tarixi abidələrə verilən ikinci həyat onların elmi əsaslarla da öyrənilməsinə zəmin yaradıb. Nehrəm kəndindəki "İmamzadə" türbə kompleksində may ayından etibarən təmir-bərpa işləri aparılır. Hazırda türbənin fasadı bərpa edilir, giriş hissə yenilənir. Bərpa işlərindən sonra milli memarlıq quruluşu ilə göz oxşayacaq türbənin ətrafında yaşıllıqlar salınacaq, işıqlandırma sistemləri quraşdırılacaq.

Qeyd edək ki, Babək rayonunda aparılan tikinti-quruculuq tədbirlərinin miqyası ilbəil genişlənir. Rayon Statistika İdarəsindən aldığımız məlumata görə, 2017-ci ilin yanvar-may aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 16 milyon 668 min 800 manat həcmində investisiya yönəldilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur. Əsas kapitala yönəldilmiş investisiyanın 15 milyon 800 min 300 manatı və ya 94,8 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

**Muxtar RZAZADƏ**

Elin sərvəti toplanır

# Bərəkətli zəmilərimizdən çörək ətirli söhbətlər



***Çətinə düşəndə bir loxma çörək dizlərə taqətdir, gözlərə işıq. Bunun üçün taxılın necə əkilib-biçilməsi məni çox maraqlandırıb. Taxılın səpilməsini, suvarılmasını, biçilməsini görməyi, torpaq adamları ilə söhbət etməyi çox arzu etmişəm. Sonradan bu, mənə nəsib olanda, ağsaqqal, dünyagörmüş adamlarla söhbət edəndə bilmişəm ki, əvvəllər kənd yerlərində, xüsusən dağlıq ərazilərdə taxılın əkilməsi, becərilməsi, yığılması, döyülməsi uzun prosesdir.***

Əvvəllər, texnikanın olmadığı vaxtlarda dağ yamaclarındakı sahələr ot biçildikdən sonra payız əkini üçün xış və ya kotan qoşulmuş öküzlə şumlanıb, yayın son ayından başlayaraq sahələrə toxum səpilərdi. Payız fəslinin ilk barlı-bərəkətli yağışları insanları sevindirib, onlar bir-birinə gözaydınlığı verərdilər. Çünki yağan ilk yağış gələn ilin ruzisinin bol olacağının xəbərçisi olub, ana torpağın isti qoynuna etibar edilən bərəkət dənəciklərinin yaxşı kök atmasına, qışın şaxta-sazağının taxıla zərər verə bilməyəcəyinə əminlik yaradardı. Əkinçilər bol məhsul əldə etmək üçün sahələri göz bəbəyi kimi qoruyar, erkən yazdan başlayaraq alaq otlarından təmizlik işlərinə bütün ailə qoşulardı. Hamı bilirdi ki, torpaq yeganə ümid yeridir, ona yaxşı qulluq etsən, qarşılığını birə-min verəcək, ona bel bağlayanları naümid buraxmayacaq. İyun-iyul aylarında isə kəndlərdə əsl bayram ab-havası yaşanardı. Taxıl biçilər, dərzlər xırmana daşınar, küləş tayalara vurulardı. Eyni zamanda at və ya qaramalı xırmanda açılmış buğda dərzlərinin üstündə hərəkət etdirməklə taxıl məhsulunu samandan ayırırdılar. Bu iş olduqca əziyyətli olurdu. Ancaq hər dəfə çəkilən zəhmət bəhrə verdikdə insanlarda ruh yüksəkliyi yaranar, onların üzü gülər, sabaha, gələcəyə inamı artardı. İndi o dövrdən çox illər, fəsillər keçib. Kəndlinin əməyini çox-çox yüngülləşdirən texnikalar icad edilib, məhsuldarlığı artıran min cür vasitə, gübrələr, dərman preparatları kəşf olunub. Ancaq taxıl əkinlərinin məqsədi və əkilən taxılın insanlarımız üçün həyati əhəmiyyəti dəyişməz olaraq qalıb.

Vaxtilə çörək qıtlığının yaşandığı qədim diyarımızda bu gün taxıl anbarları, dəyirmanlar, toxumçuluq təsərrüfatları, göz işlədikcə uzanan taxıl zəmiləri, ən müasir texnikalar və suvarma sistemləri mövcuddur. Taxılçılığa göstərilən diqqət və qayğının nəticəsidir ki, məhsuldarlıq ilbəil artır, bərəkətli zəmilərdən keyfiyyətli məhsul əldə edilir. Necə deyərlər, çörəyini torpaqdan çıxaran kənd adamları onlara yaradılan şəraitin müqabilində əkib-biçir, güngüzəranlarını yaxşılaşdırırlar.

Budur, Sədərək rayonunun taxıl zəmilərindən birindəyik. Buraya gəlməkdə məqsədimiz əkinçi sözü eşitmək, əlinin əməyi, alın təri, zəhməti ilə ucalan insanlarla söhbət etmək, onların qayğıları, gələcək planları ilə maraqlanıb təəssüratlarımızı oxucularımızla bölüşməkdir.

Səhər saatlarıdır. Göz işlədikcə uzanan taxıl zəmiləri xəfif küləyin təsirindən dəniz kimi dalğalanır. Buğda dənələrinin ağırlığına tab gətirməyən sünbüllərin boynu əyilib. Elə zəminin kənarındaca söhbət etdiyimiz torpaq mülkiyyətçisi Qafar Zeynalov sünbüllərdən birini qırıb ovcunda yaxşıca ovxalayır. Sünbüldə nəmlikdən əsər-əlamət qalmayıb, bu da ona dəlalət edir ki, biçinə başlanılmalıdır. Qılçıqdan asanlıqla ayrılan buğda dənələrinin taxıl anbarlarına, dəyirmanlara yol alma vaxtıdır. Sünbüllərdəki dənlərin çoxluğu və kifayət qədər iri olması bizdə xoş ovqat yaradır.

Qafar Zeynalov Sədərəyin tanınmış taxılçılarındandır. Taleyini torpağa bağlayan bu insan zəmilərin bu günü üçün çox zəhmət çəkib. Söhbət zamanı deyir ki, sahələrin şumlanmasından başlamış zəmilərin bol məhsulu ilə gözoxşayan bu gününə kimi tələb olunan bütün aqrotexniki tədbirlər yüksək səviyyədə yerinə yetirilib, zəmilər lazımi qaydada suvarılıb, torpaq mineral gübrələrlə zənginləşdirilib.

Göstərilən qayğıdan ruhlanan Qafar Zeynalov 30 hektarda buğda, 10 hektarda arpa əkib. Çəkdiyi zəhmətin bolluq ünvanlı bəhrəsi göz önündədir. Taxıl zəmisinin könülaçan, gözoxşayan bu mənzərəsi bir həyat tablosu kimi diqqəti çəkir.

İşindən-gücündən, qayğılarından danışan torpaq adamı söhbət zamanı onu da qeyd etdi ki, taxıl əkini və biçini zamanı sahələrə çıxan texnikaların əksəriyyəti özünə məxsusdur. Bu texnikaların imkanlarından maksimum istifadə edir, ehtiyac olduğu təqdirdə digər torpaq mülkiyyətçilərinə də köməklik göstərir. Onun dediklərindən: – Hərdən təbiət biz əkinçilər üçün bəzi problemlər yaradır. Bəzən leysan yağıb, bəzən də dolu düşüb əkinə ziyan vurub. İtkilərimiz də olub, məhsulumuza ziyan da dəyib. Amma dövlətin köməyini görüb toxtaq olmuşuq, inancımız, gücümüz artıb. Çalışırıq ki, torpağın hər qarışından səmərəli istifadə edək. Buna, əsasən, nail oluruq. Onu da qeyd edim ki, əkindən tutmuş məhsulun biçilib daşınmasınadək bütün işləri öz texnikamız vasitəsilə görürük. Əkin və nəqliyyat traktorlarımız, taxıl kombaynımız, səpin və becərmə aqreqatlarımız vardır. Taxıl biçinini ən qısa müddətdə və itkisiz başa vurmaq üçün bütün hazırlıq işlərini vaxtında görmüşük. İnanırıq ki, bu il də bol məhsul əldə edəcəyik.

Sovet İttifaqının son dönəmlərində, eləcə də 90-cı illərin əvvəllərində vəziyyətin çox pis olduğunu deyən, hazırda 10 hektarda taxıl əkən Salman Məmmədov o zamanları belə xatırlayır: “Çox çətin dövr idi. Taxıl əkmək üçün nə toxumluq buğda tapılırdı, nə də arpa. Bunları tapıb birtəhər səpin işini gördükdən sonra su problemi ortaya çıxır, əlac əlimizi açıb Allaha dua etməyə qalırdı. Birtəhər bu çətinliklərin öhdəsindən gələndən sonra sünbülün dənə dolmasını gözləyirdik ki, heç olmasa məhsulu yığıb pis-yaxşı özümüzə gün-güzəran düzəldək. Biçin vaxtı bircə dənə də olsun, salamat texnika tapa bilmədiyimiz üçün taxıl elə zəmidəcə tökülüb qalırdı. Çox heyifsilənsəm də, heç bir çıxış yolu tapa bilmirdim. Ancaq ulu öndərimiz Naxçıvana gəldikdən sonra hər şey yaxşıya doğru dəyişildi. O, bir neçə dəfə Sədərəyə gəldi, bizimlə görüşdü, ürək-dirək verdi, bizdə sabaha inam yaratdı. Onun səsindəki əminlik o zaman



Sədərəyin sabahına ümidsiz baxan sakinlərə də sirayət etdi. Bunun nəticəsi idi ki, bir nəfər də olsun, doğma torpağını tərk etmədi, əkdi-biçdi, qurdu-yaratdı. 1995-ci ildən sonrakı dövr isə sədərəkli torpaq mülkiyyətçiləri üçün dönüş, rifah illəri oldu. Yeni nasos stansiyaları yaradıldı, yeni torpaqlar əkin dövriyyəsinə qatıldı. Kənd zəhmətkeşlərinin bazara çıxış imkanlarının artırılması üçün bürokratik əngəllər aradan qaldırıldı. Ümumiyyətlə, bu haqda çox söz demək olar. Ancaq bir şeyi xüsusi vurğulamaq istərdim ki, mən və mənim kimi yüzlərlə torpaq mükiyyətçisi torpağın əsl sahibi olduğumuzu məhz 1995-ci ildən sonra hiss etdik. Buna görə də dövlətimizə minnətdaram.

*...Bəli, bu gün Sədərəkdə təcrübəli taxılçılar çoxdur. Hazırda 20 hektar taxıl sahəsinin məhsulunu toplayan Nazim Qaybalıyev, 20 hektarda taxıl əkən Eldəniz Rzayevlə də söhbətimizdən belə qənaətə gəldik ki, onlar taxılçılığın gəlirli sahə olduğunu, ancaq zəhmət tələb etdiyini yaxşı bilirlər. Dövlət qayğısının müqabilində bol məhsul əldə etməyi isə özlərinə mənəvi borc sayırlar.*

**Sərxan İSMAYILOV**
***“Oğuz yurdu” qəzetinin redaktoru***

## Proqnoz tapşırığa artıqlaması ilə əməl edilib

***Bu ilin ötən dövründə özəl sektordan vergi daxilolmalarının ümumi vergi daxilolmalarında xüsusi çəkisi artıb. Təbii ki, bu artımda muxtar respublikada sahibkarlığa göstərilən dövlət qayğısının xüsusi rolu vardır. Bu barədə Şahbuz Rayon Vergilər Şöbəsindən aldığımız məlumatda bildirilib.***

Məlumatda o da qeyd olunub ki, iqtisadi inkişafın nəticəsi olaraq, bu ilin beş ayında şöbə üzrə müəyyən olunmuş proqnoz 110,2 faiz icra edilib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə çoxdur.

Hesabat dövrü ərzində vergi ödəyiciləri tərəfindən 153100 manat plana qarşı 153968 manat icra edilib. Bu dövrdə hüquqi şəxslərdən mənfəət vergisinin həcmi 500 manat plana qarşı 1125 manat, torpaq vergisi 400 manat plana qarşı 497 manat, əmlak vergisi isə 2000 manat plana qarşı 2491 manat olub. Əlavə Dəyər Vergisi üzrə icra vəziyyəti 44400 manat plana qarşı 54520 manat təşkil edib. Sadələşdirilmiş vergi 21700 manat plana qarşı 30853 manat olub. Dövlət rüsumu sahəsində də irəliləyiş müşahidə olunub. Belə ki, 4000 manat plana qarşı 5808 manat təşkil edib. Digər vergilər üzrə də Şahbuz Rayon Vergilər Şöbəsinin nəticələri ürəkaçandır. Belə ki, 2000 manat plana qarşı bu sahədə hasilat 2033 manat təşkil edib.

Xatırladaq ki, “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı həvəsləndirici tədbirin yeddinci tirajında rayon üzrə 24 nəfər hədiyyə qazanıb.

**Xəbərlər şöbəsi**

## Torpaq mülkiyyətçilərinə göstərilən dövlət dəstəyi qadınlarımızın da bu sahədə uğurlarını artırıb

***Son illərdə Naxçıvan Muxtar Respublikasında sahibkarlığa xüsusi diqqət göstərilir, onlar dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunurlar. Bu qayğıdan qadınlarımıza da pay düşüb. İndi Naxçıvanda çox sayda qadın sahibkar vardır ki, qazandıqları uğurlarla bu sahə ilə məşğul olmaq istəyən, ancaq müəyyən səbəblər üzündən başlamağa tərəddüd edən qadınlarımızı da bizneslə məşğul olmağa təşviq edirlər.***

Qadın torpaq mülkiyyətçisi deyəndə bir neçə il bundan qabaq bir çoxları üçün bu ifadə qəribə səslənirdi. Belə bir düşüncə vardı ki, qadınlar torpağa sahiblənə, ondan qazanc götürə bilməzlər. Ancaq indi hər kəs qadınlarımızın torpaq mülkiyyətçiliyi sahəsində nə qədər böyük uğurlar qazana biləcəyinə inanır. Çünki bu gün qadınlar bütün sahələrdə olduğu kimi, sahibkarlıqda da fəallıq nümayiş etdirirlər. Bunun əsas səbəblərindən biri də muxtar respublikada qadınların sahibkarlıq fəaliyyətinə cəlb olunmasının stimullaşdırılması, dövlətin güzəştli kreditlərindən istifadə imkanlarının təşviq edilməsi, güzəştli kreditlərin verilməsi mexanizminin təkmilləşdirilməsidir. Hazırda qadınlar iqtisadiyyatın müxtəlif sahələrində çalışır, öz töhfələrini verirlər. Qadınların iqtisadi sahədə fəallığının daha da artırılması üçün həvəsləndirici tədbirlər görülür. Müxtəlif treninqlərin təşkili, biznes sahələri yaratmaq üçün güzəştli kreditlərin verilməsi, evdar qadınların sahibkarlığa cəlb olunması da bu tədbirlərdəndir. Eyni zamanda muxtar respublikanın kəndlərində yaşayan qadınların bizneslə məşğul olmaları və aqrar təsərrüfatlarını yaratmaları üçün də tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, son illər qadın sahibkarların, eləcə də torpaq mülkiyyətçilərinin sayı əhəmiyyətli dərəcədə artıb.

Şərur rayonunda hazırda qadın sahibkarlarımız çoxdur. Onlardan biri də rayonun Cəlilkənd sakini Familə Mirzəyevadır. Onu nəinki kənddə, hətta bütün Şərurda fəal torpaq mülkiyyətçisi kimi tanıyırlar. Əkib-becərmək zəhmət tələb edən iş olsa da, bu çətinliklər onu qorxutmayıb, əksinə, torpağa daha möhkəm tellərlə bağlanıb. Elə ötən günlərdə kənddəki əkin sahəsinin kənarında onunla söhbətimiz də torpağa sahiblənməyin qadınlarımız üçün üstünlükləri barədə oldu.

Familə Mirzəyeva dedi ki, 1999-cu ildən təsərrüfat qurmağa başlayıb və dövlətimizin diqqət və qayğısı sayəsində bütün çətinliklərə sinə gərə bilib. O, bu ilin yazında 3,5 hektar taxıl, 1,8 hektar qarğıdalı, 1 hektar yonca əkib. Yarım hektarda isə sarımsaq əkdiyini, bu bitkinin çox qulluq istəməsinə baxmayaraq, hər il məhsul yığımından sonra yaxşı gəlir əldə etdiyini deyən müsahibim onu da qeyd etdi ki, əvvəllər bu işə başlayarkən bir çox insanlar onun buna gücünün yetməyəcəyini deyirdilər. Ancaq heç bir maneəyə görə ruhdan düşməyib, addım-addım da olsa, uğura gedən yolda irəliləyə bilib.



Familə xanım deyir ki, ailəmizin çörəyi, toyuq-cücəmizin dəni, malheyvanımızın yemi torpaqdan çıxır. Allaha şükür ki, qışda çoxlu qar yağdığına görə bu il məhsul əvvəlki illərə nisbətən daha çox olacaq. Qışın sərt keçməsi bu il də kəndlinin istəyini doğruldacaq. Çoxillik təcrübəm göstərir ki, qarlı-şaxtalı havada torpağın nəfəs alması daha asan olur. Üstəlik, şaxta nəticəsində torpaqdakı ziyanverici həşəratlar məhv olur. Torpaq onun qədrini bilənin, ona min bir zəhmətlə qulluq göstərənin əziyyətinin əvəzini birəbeş qaytarır. Atalarımızın “Torpaq deyər öldür məni, dirildim səni” məsəli həmişə özünü doğruldub. Ailəmizin firavan dolanışığı torpaqla, əkin-biçinlə təmin olunur. Qadınlara kiçik fermer təsərrüfatları yaratmaq sahəsində dövlət dəstəyi ilə yanaşı, ailələri də dəstək olmalıdır ki, qadın güclü olsun, sahibkarlıqla məşğul olaraq ailəsinə daha çox kömək etsin.

Bəli, Familə xanımın torpaqda çəkdiyi zəhmətin müqabilində qazandığı uğurlar kənd yerlərində yaşayan bir çox qadınlarımıza nümunədir. Deməli, aqrar təsərrüfatla məşğul olan kənd adamı xeyir götürür ki, sahəsini də genişləndirir. Aydın olur ki, muxtar respublikamızda dövlət dəstəyindən səmərəli yararlanıb çoxlu qazanc əldə edən qadınlarımız sonradan torpaq mülkiyyətçisinə çevriliblər. İndi öz ailələri ilə yanaşı, bir neçə ailəni də işə cəlb edib, daha yaxşı yaşamalarına şərait yaradıblar.

Bu gün dövlətimizin məqsədi odur ki, hər bir kəndli ona düşən torpaq payını boş saxlamasın. Buna görə də kənd adamlarına fərdi qaydada güzəştli kreditlər verməklə, məhsulun satışını təşkil etməklə yanaşı, kəndlərdə ən müasirtipli kənd mərkəzləri, məktəblər, xəstəxanalar tikilir, yollar yüksək səviyyədə abadlaşdırılır. Qadınlara daha çox fürsət yaradılır, vəsait ayrılır. Qadın sahibkarlara ayrılan kreditlər güzəştli qaydada verilir.

Torpaqla məşğul olan sahibkar qadınlar ailə dəyərlərinə də önəm verir, bu dəyərlərdən uzaq düşmürlər. Belə olan halda uğurların həcmi ikiqat artır. Zəhmət çəkib torpaq əkib-becərənlər bol məhsul götürdükcə fəxr edirlər. Alnıaçıq, üzüağ, heç kimə möhtac olmadan öz əməyi ilə firavan həyat sürürlər.

**Ramiyyə ƏKBƏROVA**

## Dövlət proqramının icrası diqqət mərkəzində saxlanılır

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Bu proqram Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi islahatların uğurla həyata keçirilməsi, kadr potensialının təkmilləşməsi və hər bir sağlamlıq imkanları məhdud uşağın layiqli vətəndaş kimi cəmiyyətə inteqrasiyası olunması üçün əlverişli şərait yaradır.***

Proqramın əsas məqsədi muxtar respublikamızda yaşayan sağlamlıq imkanları məhdud uşaqların təhsil hüquqlarının təmin olunması, inklüziv təhsilə keçid imkanlarının artırılması, distant təhsilin inkişaf etdirilməsi, sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyasında müasir üsulların tətbiq edilməsi, onların müasir informasiya texnologiyalarından istifadə imkanlarının artırılması, eləcə də təlim-tərbiyəsi ilə əlaqədar müvafiq pedaqoji kadrların hazırlanmasıdır. Proqramın icrası ilə bağlı aid dövlət orqanları, o cümlədən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası və təlim-tərbiyəsi ilə əlaqədar müvafiq tədbirlər həyata keçirmişdir. Belə ki, muxtar respublika üzrə 18 yaşadək sağlamlıq imkanları məhdud olan 2024 nəfər uşaqdan 251 nəfərinin məktəbəqədəryaşlı olduğu müəyyənləşdirilmiş və onlar haqqında məlumat bazası yaradılmışdır.

Cari ilin ötən dövrü ərzində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 750 nəfər sağlamlıq imkanları məhdud uşağın valideynləri ilə əlaqə yaradılaraq maarifləndirici söhbətlər aparılmışdır. 29 nəfər sağlamlıq imkanları məhdud uşaq məktəbəqədər, məktəb, məktəbdənkənar təlim-tərbiyə, müalicə və reabilitasiya müəssisələrinə yönləndirilmişdir.

Komitə tərəfindən cari ildə sağlamlıq imkanları məhdud uşaqlarla bağlı monitorinqlərin aparılması məqsədilə muxtar respublikanın 135 məktəbəqədər, məktəb və məktəbdənkənar təhsil müəssisələrində monitorinq keçirilmiş, xüsusi kateqoriyadan olan uşaqlara qarşı heç bir hüquq pozuntusu qeydə alınmamışdır. Eyni zamanda Ordubad şəhər 3 nömrəli, Şərur şəhər 2 nömrəli və Qıvraq qəsəbə tam orta məktəblərində sağlamlıq imkanları məhdud uşaqlar üçün tolerant mühitin yaradılması ilə bağlı onların valideynləri, məktəb direktoru və psixoloqları ilə görüş keçirilmişdir.

Uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə teatr tamaşalarına, animasiya və cizgi filmləri nümayişinə, konsert proqramlarına komitə tərəfindən 490 nəfər sağlamlıq imkanları məhdud uşaq cəlb olunmuşdur.

Bundan əlavə, 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ilə əlaqədar bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, 27 may tarixdə 30 nəfər sağlamlıq imkanları məhdud və digər xüsusi kateqoriyadan olan uşaqların muxtar respublikanın istirahət guşələrinə, muzeylərə və tarixi abidələrə ekskursiyaları təşkil edilmişdir. Sonda ekskursiyaya cəlb olunmuş uşaqlara Naxçıvan Dövlət Film Fondu tərəfindən Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin həyat və döyüş fəaliyyətinə həsr edilmiş "Yaddaş" filmi nümayiş olunmuş və uşaqlara hədiyyələr verilmişdir.

Mayın 30-da komitə tərəfindən sağlamlıq imkanları məhdud uşaqlar üçün qanvermə aksiyası təşkil edilmiş, 6 litr qan toplanaraq hemofiliya və talassemiya xəstəliklərindən əziyyət çəkən uşaqlara köçürülməsi məqsədilə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin qan bankına verilmişdir.

Bundan başqa, iyunun 19-21-də uşaqların tətil günlərində asudə vaxtlarının səmərəli təşkili məqsədilə 29 nəfər sağlamlıq imkanları məhdud uşağın Ağbulaq İstirahət Mərkəzində 3 günlük istirahətləri təmin olunmuşdur.

Ümumiyyətlə, komitə tərəfindən 6 ay ərzində əlaqə saxlanılan 750 nəfər sağlamlıq imkanları məhdud uşaqdan 7 nəfər məktəbəqədər, 8 nəfər məktəbdənkənar müəssisələrin dərnəklərinə, 2 nəfər idman məktəblərinə, 12 nəfər müalicə və reabilitasiya müəssisələrinə olmaqla, cəmi 29 nəfər məktəbəqədər, məktəbdənkənar təlim-tərbiyə, müalicə və reabilitasiya müəssisələrinə cəlb olunmuşlar.

Komitə tərəfindən muxtar respublikada qeydiyyatda olan 2024 nəfər sağlamlıq imkanları məhdud uşağın rayonlar və illər üzrə xəstəliklərin təhlili aparılmışdır. Təhlillərə əsasən rayonlar üzrə ən çox yayılmış xəstəliklərin qarşısının alınması məqsədilə cari ilin mart ayından muxtar respublikanın kənd mərkəzlərində qadınlar arasında maarifləndirici tədbirlər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi müvafiq proqramın icrası ilə bağlı tədbirləri hazırda da davam etdirir. Bütün bu görülən tədbirlər bir məqsədə – gələcəyimizin sağlam təməllər üzərində qurulmasına, uşaqların vətənimiz, dövlətimiz üçün layiqli vətəndaş kimi yetişməsinə xidmət edir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## "Müasir İran mədəniyyətinin görkəmli nümayəndələri" adlı fərdi fotosərgi açılıb



***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda iranlı fotoqraf və rejissor Paşa Hadianın "Müasir İran mədəniyyətinin görkəmli nümayəndələri" adlı fərdi foto sərgisi açılıb.***

Sərgiyə baxışdan əvvəl sənətşünas Nizami Alıyev çıxış edərək sərginin təşkilinin sənət adamları üçün əlamətdar hadisə olduğunu deyib. Bildirilib ki, sərgidə fotoqrafın 65 əsəri yer alıb.

İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Mənsur Ayrom, konsulluğun mədəniyyət atteşesi Hüseyn Ağazadə və Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Nihat Erşen çıxış edərək ölkələr arasında siyasi, iqtisadi əlaqələrlə yanaşı, mədəni əlaqələrin inkişafının vacibliyini də qeyd ediblər.

İranlı fotoqraf və rejissor Paşa Hadian fotosərgiyə gələnləri salamlayıb. Bildirib ki, sərginin müasir İran mədəniyyətinin görkəmli nümayəndələrinə həsr edilməsində məqsəd bu şəxsiyyətləri daha geniş miqyasda tanıtmaqdır.

Fotoqraf deyib ki, bir sənətə ömrünü həsr etmək üçün həmin sənəti, həqiqətən də, sevmək lazımdır. İllərdir, məşğul olduğu bu sənətdə bacardığı qədər irəli getməyə, insanların bəyənəcəyi fotolar çəkməyə çalışıb. Bu sərgi 7 ilin məhsuludur.

Sonra sərgiyə baxış keçirilib.

**✍ Fatma BABAYEVA**

## Görkəmli elm xadimlərimizin ev-muzeylərinin yaradılması onların irsinə hörmət və ehtiramın ifadəsidir



***Xalqımızın ümummilli lideri Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı Ordubad füsunkar gözəllikləri, qədim yurd yerləri, tarixi abidələrilə yanaşı, həm də görkəmli şəxsiyyətləri ilə şöhrət qazanıb. Bu qədim diyar yetirdiyi elm, incəsənət, mədəniyyət xadimləri ilə tariximizin şanlı salnaməsində özünə şərəfli bir yer tutur. Bu torpağın yetişdirdiyi böyük alimlərdən biri də kimya elmləri doktoru, akademik Yusif Məmmədəliyevdir.***

Dünya şöhrətli görkəmli kimyaçı-alimin Azərbaycan Milli Elmlər Akademiyasının tarixində böyük xidmətləri olub. İkinci Dünya müharibəsi illərində Sovet İttifaqının böyük qələbə qazanmasında xüsusi rolu olan yüksəkoktanlı benzini kəşf edib, istehsalına və aviasiya sənayesində tətbiqinə nail olub.

Bu günlərdə görkəmli alimin ev-muzeyi ilə yaxından tanış olmaq məqsədilə Ordubad rayonuna üz tutduq. Muzey bələdçisi Nazilə Bağırova muzeyin tarixi barədə bizi məlumatlandırdı. O dedi ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin qayğısı nəticəsində görkəmli alimin adını əbədiləşdirmək üçün 1975-ci ildə akademikin ev-muzeyinin əsası qoyulub. Muzeyin açılış mərasimi 1976-cı il 6 fevral tarixdə olub, 2005-ci ildə isə burada yenidənqurma işləri aparılıb. Muzey fəaliyyətə 407 eksponatla başlayıb, indi isə muzeyin fondunda 2000 eksponat mövcuddur.

İki mərtəbədən ibarət olan binanın birinci ekspozisiya zalındayıq. Divarda Yusif Məmmədəliyevin ailəsi ilə birlikdə çəkdirdiyi fotoşəkillər, o cümlədən həyat və yaradıcılığını əks etdirən fotolar yer alıb. Diqqətimizi çəkən maraqlı fotolardan biri Yusif Məmmədəliyevin müəllimi Zelinski, onun həyat yoldaşı Nina Zelinskaya, Yusif Məmmədəliyev və onun həyat yoldaşı Bilqeyis xanımla birlikdə çəkdirdiyi fotoşəkildir.

Bu zaldakı vitrinlərdə yer alan eksponatlar içərisində ən maraqlısı alimin şəxsi əşyalarıdır. Alimin eynəyi, saatı, pasportu, Həmkarlar İttifaqının üzvlük bileti, 1953-cü ildə Bakı şəhərində Zəhmətkeş Deputatlar Sovetinə deputat seçildiyi 4-cü çağırış deputat vəsiqəsi dəyərli eksponatlar sırasındadır.

Zalda dəyərli eksponatlar yerləşdirilən digər bir guşə diqqətimizi cəlb edir. Bu guşədə Yusif Məmmədəliyevin Azərbaycan Dövlət Universitetində işlədiyi 1956-1957-ci illərdə məzunlarla birlikdə çəkilmiş şəklidir. Burada həmçinin Yusif Məmmədəliyevə verilmiş üzvi kataliz ixtisası üzrə Moskva Kimya Tədqiqatları İnstitutunu bitirməsi haqqında vəsiqə, alimin rus dilində yazılmış əlyazması və qızı Sevda Məmmədəliyevanın atasının 100 illik yubileyinə həsr etdiyi məqaləsinin dərc olunduğu jurnal nümayiş etdirilir.

Digər bir otaqda qeyri-adiliyi ilə seçilən, qədimliyi ilə diqqəti cəlb edən balaca taxçalar var ki, elə həmin taxçalar da eksponat kimi nümayiş etdirilir. Bələdçinin dediyinə görə, bu taxçalar XIX əsrdə Ordubadda tikilən mənzillər üçün xarakterikdir. Taxçadakı qədim xalça, keçə, məfrəş, məcmeyi, satıl da maraqlı eksponatlardandır.

Muzeydə məişət və mədəniyyətimizi əks etdirən əşyalardan müxtəlif lampalar, qəlyan, çilçıraq, radio, mis qablar, dolça, sərpuş, badə, həvəngdəstə və başqa əşyalar ziyarətçilərə təqdim olunur.

Bu gün muxtar respublikamızda görkəmli simaların yaradıcılığına yüksək qiymət verilməsi, onların yubileylərinin qeyd olunması, xatirələrinin əbədiləşdirilməsi, əsərlərinin tədqiqi və təbliği işinin daha da yaxşılaşdırılması istiqamətində çoxsaylı tədbirlər həyata keçirilir. Belə tədbirlər təkcə həmin şəxsiyyətlərin xidmətlərinə diqqət və ehtiramın ifadəsi olmaqla məhdudlaşmır, eyni zamanda humanitar siyasətin tərkib hissəsi, Azərbaycançılıq ideologiyasının vacib komponentlərindən biri kimi böyük dəyər qazanır. Həyata keçirilən belə tədbirlər isə bütün sahələrlə yanaşı, elmə, təhsilə, ədəbiyyata, mədəniyyətə göstərilən qayğının parlaq təzahürüdür.

**✍ Gülcamal TAHİROVA**

***Muxtar respublikada gənclərin idmana cəlbi və idmanın kütləviliyinin artırılması sahəsində tədbirlər bu ilin ikinci rübündə də davam etdirilmişdir. Rayonlarda idman federasiyalarının yerli bölmələrinin yaradılması istiqamətində işlər aparılmış, fəaliyyət göstərən bölmələrin işinə nəzarət gücləndirilmişdir.***

## Muxtar respublika idmançıları bu ilin ikinci rübündə 462 medal qazanıblar

İdman yarışlarının, xüsusilə ölkə və beynəlxalq səviyyəli yarışların keçirilməsi ilə bağlı verilmiş tapşırıqlar icra olunmuşdur. Belə ki, qeyd olunan dövrdə peşəkarlararası reytinq və kəmər müdafiəsi döyüşləri, pauerliftinq və benchpress idman növü üzrə beynəlxalq turnir, futbol üzrə "Qarabağ" və "Qəbələ" komandaları arasında Azərbaycan kubokunun final oyunu, "Naxçıvan-2017" Beynəlxalq Şahmat Festivalı, boks üzrə yeniyetmələr arasında "Heydər Əliyev kuboku-2017" beynəlxalq turniri və futbol üzrə "Heydər Əliyev kuboku" yarışı keçirilmişdir. Həmçinin federasiyadaxili yarışlar təşkil olunmuş və qalib idmançılar mükafatlandırılmışdır. Muxtar respublikadan olan 37 idmançı isə müxtəlif idman növləri üzrə keçirilən ölkə və beynəlxalq səviyyəli yarışlarda iştirak etmişdir.

Naxçıvan Dövlət Universitetinin bədən tərbiyəsi və idman, fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi ixtisaslarında təhsil alan tələbələr arasında intellektual oyun keçirilmiş, gənclərlə iş və idman sahəsini əhatə edən tədbirlərdə həmin tələbələrin iştirakı təmin olunmuşdur. Qızların idmana cəlb olunması istiqamətində də işlər davam etdirilmiş, hərtərəfli şərait yaradılmışdır.

Məhdud fiziki imkanlı gənclərin muxtar respublikanın idman həyatına daha fəal inteqrasiyası sahəsində tədbirlər görülmüş, bədən tərbiyəsi və idmanın bu kateqoriyadan olan şəxslərin reabilitasiyasına təsiri ilə bağlı təbliğat işləri genişləndirilmişdir. Belə ki, fiziki imkanları məhdud şəxslər arasında armresling üzrə Naxçıvan Muxtar Respublika birinciliyi və ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda paralimpiyaçılar arasında futzal idman növü üzrə Naxçıvan Muxtar Respublika turniri keçirilmişdir. Həmçinin aztəminatlı ailələrdən olan uşaq, yeniyetmə və gənclərin ödənişsiz idmanla məşğul olmaları üçün şərait yaradılmış, federasiyalardan bu qəbildən olan idmançılar haqqında məlumatlar toplanmış, idman geyim və ləvazimatları ilə təmin olunmuşlar.

Muxtar respublikada mövcud Olimpiya-İdman komplekslərinin fəaliyyətlərinin gücləndirilməsi, yerlərdə yaradılmış şəraitdən, o cümlədən idman qurğu və avadanlıqlarından səmərəli istifadəyə nail olunması üçün işlər davam etdirilmiş, eləcə də Şərur rayonunun Dəmirçi kəndində yeni stadion istifadəyə verilmişdir. 2017-ci ilin ikinci rübündə Şərur rayonunda 14, Babək rayonunda 10, Ordubad rayonunda 8, Culfa rayonunda 13, Kəngərli rayonunda 9, Şahbuz rayonunda 23, Sədərək rayonunda 6 idman tədbiri keçirilmişdir. Ali təhsil müəssisələri və idman federasiyaları ilə birgə hazırlanmış proqrama əsasən Uzunoba Su Anbarının ətrafında ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında ekstremal yürüş üzrə Naxçıvan Muxtar Respublika birinciliyi və "Heydər Əliyev kuboku" uğrunda peyntbol idman növü üzrə Naxçıvan Muxtar Respublika turniri keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən idman federasiyalarının idman növləri üzrə yığma komandaları yaradılmış və ölkə səviyyəli yarışlarda iştirakı təmin olunmuşdur. Ümumilikdə, bu ilin ikinci rübündə Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən 80 tədbir keçirilmişdir. Hesabat dövründə muxtar respublika idmançıları 462 medal qazanmışlar ki, bunlardan 410-u Naxçıvan Muxtar Respublika birinciliyi, 24-ü Azərbaycan birinciliyi, 26-sı Beynəlxalq turnir, 1-i Dünya çempionatı, 1-i isə IV İslam Həmrəyliyi Oyunlarında olmuşdur.

Muxtar respublikada idman növlərinin inkişaf etdirilməsi, gənclərin idmana cəlbi, idmanın kütləviliyinin artırılması sahəsində tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Oxucu məktubları

*"Şərq qapısı" qəzetinə yazırlar*

## Naxçıvan bizi valeh etdi



***Əslən naxçıvanlıyam. Daha dəqiq desəm, Kəngərli rayonunun Şahtaxtı kəndində anadan olmuşam. 69 yaşım var. Gənc yaşlarımdan Bakı şəhərində yaşayıram. Arabir Naxçıvana gəlir, bir-iki gün burada qalır, qohumlarımla görüşürəm. Son 20 ildən artıq bir müddətdə burada daha çox olmaq istəyirəm. Çünki hər gəlişimdə Naxçıvan Beynəlxalq Hava Limanından Şahtaxtı kəndinə qədər olan məsafədə gördüklərim məni, sözün həqiqi mənasında, qürurlandırır. İxtisasca mühəndis-texnoloqam. Gənclik vaxtlarımdan piyada gəzməyi çox xoşlayıram. Yaşımın bu vaxtında piyada gəzintisi həm də mənim səhhətim üçün xeyirlidir.***

Keçim əsas mətləbə. Azərbaycanın əksər bölgələrində olmuşam. Həmin bölgələrdə piyada gəzintilərinə çıxmışam. Ölkəmizin görməli yerləri ilə tanış olmuşam. Bu dəfə Naxçıvana gələndə qarşıma məqsəd qoydum ki, 10 gün burada qalacaq, bu qədim diyarın görməli yerlərini piyada gəzəcəyəm. Elə də etdim. Piyada gəzintimi ilk olaraq Əshabi-Kəhf ziyarətgahına saldım. Naxçıvan şəhərindən bu müqəddəs ünvana qədər getdiyim yollarda rastlaşdığım insanlar mənimlə öz doğmaları kimi görüşürdülər, sanki məni neçə illərdir, tanıyırdılar. Təəccüblərini də gizlətmirdilər ki, bu yaşda qadın piyada bu qədər yolu qət edir.

Sonra səfərimi Duzdağ Fizioterapiya Mərkəzinə qərarlaşdırdım. Bura mənə dünyanın məşhur ölkələrində gördüyüm səhiyyə ocaqlarını xatırlatdı. Fəxr edirdim ki, yanımda Bakı şəhərindən olan rəfiqələrim Fizzə Musayeva və zaqatalalı Nigar Salmanova da bu qədim diyarda həyata keçirilən tədbirlərin bəhrələrini görürlər. Onlar da gördüklərindən ürəkdolusu danışırdılar. Olduğumuz yerlərin şəkillərini çəkirdilər. Rəfiqələrimin daha çox xoşlarına gələn muxtar respublikada böyük ehtiramla mühafizə olunan tarix-mədəniyyət abidələri idi. Yeni həyat verilmiş Əlincəqala, Gülüstan və digər abidələrlə tanışlıq onları daha çox sevindirdi.

Biz Kəngərli rayonunun Qarabağlar kəndində də olduq. Burada Qarabağlar türbəsinin təmir edildiyini gördük. Bu kəndlə tanışlıq rəfiqələrimdə o qədər xoş təəssürat yaradıb ki, indi də o günləri xatırlayırlar. Deyirlər ki, yaxın vaxtlarda Naxçıvanda şəhərlə kənd arasında fərq tamamilə aradan qaldırılacaq. Çünki kənd yaşayış məntəqələrində elə tikintilər həyata vəsiqə alıb ki, şəhərdəkilərdən seçilmir. Yolları ən müasir üslubda işlənib.

Naxçıvanda həyata keçirilən bu işlər qədim diyara bağlılığın təzahürü, onun dününənə, bu gününə, sabahına cavabdehlik hissinin ifadəsidir və əhali tərəfindən dəstəklənir. Naxçıvanlılar öz yurd yerlərini gözəl və təmiz saxlamağı sevirlər.

Naxçıvandan xoş təəssüratlarla ayrıldıq. Qarşıdan gələn qış mövsümündə yenidən Naxçıvana səfər etmək, qədim diyarı soyuq, qarlı qış aylarında da görmək istəyirik.

**Ənnab HÜSEYNOVA**
***Bakı şəhər sakini, mühəndis-texnoloq***

*Minnətdarlıq*

## Ağbulaq İstirahət Mərkəzində xoş və mənalı günlər keçirdik

Bir axşam mənə zəng gəldi. Dedilər ki, Naxçıvan Dövlət Universitetinin fəal gəncləri üç günlüyünə Ağbulaq İstirahət Mərkəzinə "Yay məktəbi"nə göndərilir, sənin də adın o gənclərin siyahısındadır. Mən bu təklifi məmnuniyyətlə qəbul etdim. Çünki ilk dəfə idi ki, Ağbulağa gedəcəkdim, bir az sevincli və bir az da həyəcanlı idim. O gün gəlib çatdı. Biz iyunun 28-də Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin qarşısına toplaşdıq. 60 tələbə və 4 nəfər nəzarətçi-müəllimlə bizi oraya yola saldılar. Müasir standartlara cavab verən rahat avtobuslarla dağlar qoynunda yerləşən Şahbuz rayonunun Ağbulaq kəndinə yollandıq.



Hər tərəf yamyaşıl, enişli-yoxuşlu yollar, təbiətin gözəlliyi adamı valeh edirdi. Ağbulağa çatdıq. Otaqlarımıza yerləşəndən sonra bir-birimizlə yaxından tanış olduq. Deyim ki, çox tez isinişdik. Bizə mərkəz və "Yay məktəbi"nin məqsəd və mahiyyəti barədə ətraflı məlumat verdilər.

İstirahətin ilk günü "Gəzinti və ekskursiyaların insan psixologiyasına təsiri" mövzusunda seminarda iştirak etdik, yemək, çay süfrəsi arxasında söhbət etdik. "Nuh yurdu" intellektual oyunu keçirildi. İlk günün axşamı biz aprel döyüşlərində şəhid olan leytenant Qabil Orucəliyev haqqında sənədli filmə baxdıq. Film barədə təəssüratlarımızı, vətənpərvərlik hisslərimizi bir-birimizlə bölüşdük. İkinci gün biz Ağbulağa endik və orada maraqlı anlar yaşadıq, buranın füsunkar gözəlliklərinə valeh olmamaq mümkün deyildi. Sonra "Gənclərdə fərdi inkişaf və özünüifadəetmə üsullarının təbliği" mövzusunda keçirilən seminarda bizi maraqlandıran suallara cavab tapdıq.

İstirahətin sonuncu günü biz Şahbuz Dövlət Təbiət Qoruğuna və Batabat yaylağına yollandıq. Orada çoxlu fotolar çəkdim və buna görə, fotomüsabiqədə fəxri fərmana layiq görüldüm. Bu, mənim üçün ikiqat sevinc oldu. Sonra Naxçıvan şəhərinə yola düşdük.

Üçgünlük Ağbulaq səfəri məndə yaddaqalan təəssürat oyatdı. Çox yaxşı insanlar, yeni dostlar qazandım. Həyatımın ən gözəl anlarını yaşadığımı deyə bilərəm. Çox gözəl günlər idi. Mən bir də ona görə sevinirəm ki, çəkdiyim fotolar bu gün sosial şəbəkələrdə, xəbər saytlarında yerləşdirilib. Fürsətdən istifadə edib "Yay məktəbi"ndə iştirak edəcək digər yeniyetmə və gəncləri də doğma yurdumuzun gözəlliklərini çəkdikləri fotolar vasitəsilə sosial şəbəkələrdə təbliğ etməyə çağırıram.

Mətbuatda da mütəmadi yer aldığı kimi, burada təkcə tələbələr deyil, müxtəlif yaş qrupları, xüsusilə də aztəminatlı ailələrin uşaqları, sağlamlıq imkanları məhdud uşaqlar da iştirak edirlər ki, bu da onların dünyagörüşünün inkişaf etməsi, sosiallaşmaları baxımından çox əhəmiyyətlidir.

Hörmətli redaksiya! Qəzetiniz vasitəsilə gənclərin "Yay məktəbi"nin təşkilatçılarına dərin minnətdarlığımı bildirmək istəyirəm.

**Anar SADİQOV**
***Naxçıvan Dövlət Universitetinin Memarlıq ixtisasının IV kurs tələbəsi***

## Ailəmizin rifah halı yaxşılaşır

Hörmətli redaksiya. Bu məktubu sizə Şərur rayonunun Şəhriyar kəndindən yazıram. Məktubu yazmaqda əsas məqsədim ailəm adından dövlətimizə minnətdarlığımı ifadə etməkdir. Bildirmək istəyirəm ki, ailəm dörd nəfərdən ibarətdir. Digər aztəminatlı ailələr kimi, biz də hər ay dövlətimiz tərəfindən sosial yardımla təmin olunurduq. Bu yaxınlarda isə, daha doğrusu, 2017-ci il iyunun 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tapşırığı əsasında muxtar respublikamızda yaşayan bir çox aztəminatlı ailələrə öz təsərrüfatını qurmaq üçün cins inək verilmişdir. Yüksək gəlirliyi ilə seçilən "Simmental" cins inəklər bizim kimi ailələrin rifah halının yaxşılaşdırılmasına töhfə verəcəkdir.

Biz dədə-babadan kənddə təsərrüfatla məşğul olmuşuq. Sağ olsunlar, bu inəklər bizə verilməzdən əvvəl onlara necə qulluq edilməsi ilə bağlı təşkil olunmuş kurslarda iştirak etdik, təcrübəli baytarlardan dolğun məlumatlar aldıq. Bu isə bizim əlavə təcrübə əldə etməyimizə səbəb oldu. Şükürlər olsun ki, dövlətimizin aztəminatlı ailələrə göstərdiyi qayğı sayəsində ailə təsərrüfatımızı yaratmışıq. Çalışacağıq ki, bizə göstərilən bu qayğıya əməli işimizlə töhfə verək, heyvandarlıq məhsullarına olan tələbatın ödənilməsində bizim də payımız olsun. Bir daha bu layihənin həyata keçirilməsində zəhməti olan hər kəsə ailəmiz adından minnətdarlığımı bildirirəm.

**Mahir ƏSGƏROV**
***Şərur rayon Şəhriyar kənd sakini***

## Həkim briqadaları obalardakı heyvandarlara tibbi xidmət göstəriblər

Yay mövsümünü Şərur, Şahbuz, Culfa və Ordubad yaylaqlarında keçirən heyvandarlara, onların ailələrinə səhiyyə xidmətinin təşkili üçün Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi 2014-cü ildən xüsusi həkim briqadaları yaradıb. Bu gün obalarda yaşayan sakinlərin zəruri dərman vasitələri, sarğı materialları ilə təminatı, səhiyyə maarifi işi aparılması, mövsümi xəstəliklər, günvurma, ilan və əqrəb sancmaları, yaralanma zamanı ilk yardım barədə tibbi məsləhətlər verilməsi həmin həkim briqadaları tərəfindən diqqətdə saxlanılır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, yay mövsümünü yaylaqlarda keçirən heyvandarlara, onların ailələrinə göstərilən səhiyyə xidməti davam etdirilir.

Ordubad Rayon Mərkəzi Xəstəxanasının terapevt, kardioloq, cərrah, stomatoloq və pediatrlardan ibarət çoxprofilli həkim briqadası Göygöl ərazisindəki yaylaqlarda məskunlaşan heyvandarlara baş çəkib. Hazırda təkcə Genyurd yaylağında 2 oba məskən salıb. Onların öhdəsində 5 min başa yaxın malqara, qoyun-quzu var. Çadırlarda Kəngərli rayonunun Çalxanqala kəndindən gəlmiş fermer və çobanların 38 ailə üzvü yaşayır. Briqadanın fəaliyyəti zamanı onların hamısı profilaktik tibbi müayinəyə cəlb olunub, pediatrik, kardioloji, cərrahi, stomatoloji müayinələr aparılıb. Yaylaqda arana nisbətən havaların sərin keçməsi səbəbindən obalardakı azyaşlı uşaqların bir qismində qulaqağrısı və yuxarı tənəffüs yollarının patologiyası müşahidə olunub, onların müalicəsi ilə bağlı lazımi dərmanlar verilib.

Ordubad Rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən obalarda dezinfeksiya, dezinseksiya tədbirləri həyata keçirilib.

Şahbuz Rayon Mərkəzi Xəstəxanasının həkim briqadası isə Kükü kəndi ərazisindəki Qanlıgöl yaylağında olub. Burada, əsasən, Şərur rayonunun Mahmudkənd və Kəngərli rayonunun Xok kəndlərindən gəlmiş heyvandarlar məskunlaşıblar. Terapevt, LOR, cərrah, stomatoloq və pediatrlardan ibarət həkim briqadası 18 çadırda məskunlaşan 31 nəfəri profilaktik tibbi müayinələrdən keçirib, ilkin tibbi yardım üçün dərmanlar paylanıb.

Müayinələr mövsüm boyu davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Üzgüçülük üzrə Naxçıvan şəhər birinciliyi keçirilib



***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin Üzgüçülük Mərkəzində yeniyetmə və gənclər (2000-2002, 2003-2005 və 2006-2007-ci illər) arasında üzgüçülük üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.***

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov bildirib ki, bu yarışın təşkilində məqsəd məktəblilərin yay tətilində asudə vaxtlarının daha da səmərəli keçirilməsini təmin etmək və onlara sağlam həyat tərzi aşılamaqdan ibarətdir.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin birgə təşkil etdiyi yarışda 3 yaş qrupunda 50-yə yaxın idmançı iştirak edib. Üzgüçülüyün sərbəst üsulu üzrə 25 və 50 metr məsafədə keçirilən yarışın yekununa əsasən 2000-2002-ci illər təvəllüdlü idmançılar arasında Həsən Abbasov, 2003-2005-ci illər təvəllüdlü idmançılar arasında Əkbər Məmmədov və 2006-2007-ci illər təvəllüdlü idmançılar arasında isə Elvin Yusifli bütün rəqiblərini qabaqlayaraq finiş xəttinə birinci çatıblar.

Sonda hər yaş qrupunda yer tutan və fərqlənən idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplom və fəxri fərmanları verilib.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 557